# TƏDRİS PROSESİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARI

***Qafarova L. M.***
*(BDU,Tətbiqi riyaziyyat və kibernetika fakültəsi)*
*lezife.qafarova.95@mail.ru*

***Xülasə:*** *İşdə təlim texnologiyalarına nəzəri baxış,onların mahiyyəti və məzmunu haqqında müəyyən bilik əldə edilir.Eyni zamanda tədris prosesində interaktiv texnologiyalardan,Activ İnspire programından istifadə olunur.*

*Açar sözlər: Activ İnspire,proqram,təlim texnologiyaları,interaktiv təlim,tədris,müəllim*

XXI əsr texnologiyalar əsridir. Təlim metodu ənənəvi təlim metodundan kəskin sürətdə fərqlənir.Elektron lövhələr və kompüter həyatımızın böyük bir hissəsini təşkil edir.Elektron qələm təbaşiri əvəz edir. Hal hazırki təlim prosesi şagirdə yönəlmiş təlim prosesidir. İnternet resursları və kompüterinin tədris prosesinə daxil olması müəllimlərin dərslərini daha da maraqlı qurmağa imkan yaradır. Müasir dərs produktiv, rəngarəng, emosional olmalıdır.Dərs hazırlamaq üçün müəllimə ilk növbədə "Promethean" lövhələr çox yaxından kömək edir. İnteraktiv lövhədən daha geniş istifadə şagirdlərdə fənnə marağı yüksəltmək, dərsin keyfiyyətini artırmağa çox kömək edir. İnteraktiv lövhələrdə keçirilən dərslər yaddaqalan, maraqlı, təhsilin keyfiyyətinin və öyrənməyə marağın artmasına səbəb olur.Toxunuşla lövhədə baş verən dəyişikliklərin rəngarəng, effektli, məzmunlu olması şagirdlərdə möcüzə baş vermiş kimi bir təəssürat yaradır. Keyfiyyətli dərslərdə nəzəriyyəyə nisbətən təcrübəyə daha çox üstünlük verilir. Lövhələr biliklərin təcrübə əsasında qazanılmasına zəmin yaradır.İnteraktiv löhvələrindən istifadə edən müəllim təlim prosesində əlavə vasitələrə çox az müraciət edir. Təlimdə stikerlərdən, rəngli markerlərdən, plakatlardan və silgidən istifadəyə ehtiyac qalmır. Bu imkanlar bütövlükdə "ActivİnspireP" proqramının daxilində nəzərə alınıb.Müəllim əyanilik üçün şagirdə keçəcəyi mövzunu əhatə edən şəkillər, səs faylları, videoçarxlar təqdim edə bilər. Promethean - interaktiv lövhələri bir çox imkanlara malikdir. İmkanlardan biri riyazi alətlərin proqram daxilində istifadə olunmasıdır.Müəllim ehtiyac duyduqda riyazi alətləri (transportir, pərgar, xətkeş) asanlıqla lövhəyə gətirib, dərs prosesində rahatlıqla istifadə edir. Şəkillərin, alətlərin, obyektlərin ölçüsünü böyütməklə arxa sıralarda əyləşən şagirdlərin diqqətinin cəmlənməsini, dərsdə aktivliyini təmin etmək olar. Lövhələrin imkanları bununla kifayətlənmir.Müəllim "fasilitator" rolunu oynayaraq istiqamətləndirici olub, şagirdin tədqiqatçı olmasına şərait yarada bilər. Məsələn, konteyner, sehrli qələm, gizlilik kimi funksiyalar şagirdin araşdırma nəticəsində doğru cavab tapmasına kömək edir.

Lövhəsinin əsas xüsusiyyətləri və üstünlükləri aşağıdakılardır:

ağ lövhə kimi istifadə etmək imkanı;

möhkəm səthli lövhə;

32768 x 32768 rezolyusialı 78 düym ölçülü ekran;

batareyasız 2 ədəd interaktiv qələm;

Activinspire proqram təminatı və minlərlə elektron dərslərə çıxış imkanı;

həm interaktiv qələm, həm də əl toxunuşları ilə işləmək imkanı;

ekranın xüsusi funkisonallığı lövhə üzərində interaktiv qələmlərdən istifadəni və əl toxunuşlarını daha həssas edir;

səs avadanlığı səsli dərslərin tədrisi üçün imkan yaradır;

kompüterin əməliyyat sistemindən aslı olaraq lövhənin üzərində eyni zamanda 6 istifadəçiyədək işləmə imkanı mövcuddur (Mac, Linux, Windows 7 və Windows 8 );

divara asan bərkidilməsi üçün xüsusi bərkidici qurğular daxildir:

müxtəlif əməliyyat sistemləri ilə işləmə imkanı mövcuddur;

Lövhə USB ucluqlu naqilini kompüterə, digər naqilini isə elektrik cərəyanına qoşmaqla işlək vəziyyətinə gətirilir. Lövhənin kalibrasiyası: AvtivPen qələminin ucu ilə mausun göstəricisinin üst–üstə düşməsidir. Lövhəyə qələmi yaxınlaşdırdıqda mausun göstəricisi qələmin ucu ilə üstüstə düşərsə, lövhəni kalibrasiya etməyə ehtiyac yoxdur. Qələmi lövhəyə yaxınlaşdıran zaman bu hal baş verməzsə, bu zaman lövhə kalibrasiya olunmalıdır.

**Ədəbiyyat**

1. M.Ə.Alışov. Tədris prosesində elektron lövhə və elektron laborator proqramlarından istifadə, Bakı, 2015.
2. M.Ə.Alışov, M.Əliyev. Həndəsə məsələləri, Bakı, Elm, 2010.
3. htpp://www.edumedia.az
4. htpp://www.facebook.com/edumedia.azerbaijan